Наблюдения за его стихами показывают, что такие стилистические формы, сопровождаемые единообразием формы, порождают сложные и богатые оттенки содержания, используемые для расширения границ поэтического впечатления. Близость звучания слов в его стихотворениях, близкое и далекое расположение определенных звуковых компонентов делают его произведение колоритным, адаптируют его к образной системе, находят отклик в сердце и душе читателя.

В целом можно сказать, что повторение звуковых комплексов возникло в результате стилистической потребности и стало необходимостью, создавшей поэзию.

REPETITIONS IN BALASH AZEROGLU'S POETRY AND MOMENTS OF DEVELOPMENT OF SYNTACTIC-STYLISTIC FIGURES

Hajiyeva Yaqut Mubariz

Summary

The article takes a special place in stylistic figures as rhythmic indicators in poetry and explains how they affect the essence and harmony of the artistic content. The type of figures, the repetitions, along with the formal appearance of the text, the activity in the organization of the internal composition is unequivocally accepted in the linguistic literature. Research shows that in Balash Azeroglu's poetry, the unity of form and content created by sound complexes creates a stylistic integrity, which is considered to be a key factor in the integration of the semantic load into the content. From this point of view, repetitions were widely used in the work of Balash Azeroglu as a stylistic figure who created the text. The poet's style of poetry shows that the word and sound complexes that are repeated as a result of mastery are original. Observations on his poems show that such stylistic forms, accompanied by the uniformity of form, give rise to complex and rich shades of content, used to expand the boundaries of poetic impression. The proximity of the sound of the words in his poems, the close and distant arrangement of certain sound components make his work colorful, adapt it to the figurative system, and resonate in the heart and soul of the reader.

In general, it can be said that the repetition of sound complexes arose as a result of stylistic needs and became a necessity that created poetry.

Rəyçi prof Quliyev T.Z.
Azərbaycan dili kafedrasının 18 mart 2021-ci il tarixli onlayn iclasın 07 saylı protokolu
Daxil olma tarixi 19 mart 2021-ci il

UOT:81.

NAĞIL DİLİNDƏ DİNLƏYİCİLƏRİN DİQQƏTİNİN YOXLANILMASI ÜÇÜN NƏZƏRDƏ TUTULAN FORMULLAR

Həsənova Aybəniz Azik qızı
Azərbaycan Tibb Universiteti
hasanova_aybaniz@mail.ru

Xülasə: *Məqalə çərçivəsində aparımış tədqiqat zamanı nağıl dilində diqqətinin yoxlanılması üçün nəzərdə tutulan, eləcə də dinləyicinin diqqətini cəlb etmək məqsədi daşıyan formulların təhlili aparılır. Dillərarası əlaqə, nitq mədəniyyəti, etnokulturoloji dəyərlər və onların dildə öz əksini tapması kimi məsələlər müasir dilçiliyin xüsusi tədqiqat obyekti olduğundan nağıl dilinin tədqiq edilməsi olduqca aktual hesab edilən məsələlər sırasında yer alır. Məqalənin əsas məqsədi bu formulların yerinə yetirdiyi funksiyanı müəyyən etmək və istifadə vasitələrini aşkar etməkdir. Bu məqsədlə tədqiqata Azərbaycan və ingilis xalq nağılları cəlb edilib, bu nağıllardan götürülmüş müəyyən parçalar üzərində təhlillər aparılmışdır. Araşdırma zamanı dilçiliyin təsviri-müqayisəli və tipoloji-müqayisəli*

metodlarından istifadə edilir. Burada Azərbaycan dilçiliyində ilk dəfə olaraq ekspressivliyi ilə seçilən xüsusi növ nağıl formullarından söhbət aşılır və müxtəlifsistemli dillərin materialları əsəasında təhlil edilir. Nəticə olaraq, müəllif qeyd edir ki, Azərbaycan və ingilis dilli nağıllarda müahidə edilən formullar arasında oxşarlıq müşahidə edilsə də, hər biri öz səciyyəvi xüsusiyyəti və milli koloriti ilə seçilir.

Açar sözlər: nağıl dili, formullar, dilçilik, ekspressivlik, etnokulturoloji dəyərlər.

Ключевые слова: сказочный язык, формулы, языкознание, экспрессивность, этнокультурные ценности.

Key words: tales' language, formulas, linguistics, expressiveness, ethnocultural values.

Nağıllar birbaşa olaraq milli dünyagörüşünə təsir edir və müəyən bir dilə mənsub olan cəmiyyətin dünya haqqında dil mənzərəsini təcəssüm etdirir [5]. Məhz bu baxımdan nağıl dilinin araşdırılması, təhlil edilməsi olduqca maraqlı hesab edilir. Nağıllar müxtəlif xalqların folklor korpusunun bir komponentidir və, deməli, xalqların nitq mədəniyyəti, onlar dünyagörüşü haqqında dəyərli məlumat daşıyıcısıdır. Nağıllar bu və ya digər bir xalqın dil mənzərəsinin bir fraqmenti kimi milli özəlliklərə malik olsa da, ümumdünya xalq yaradıcılığı üçün ortaq müəyyən xüsusiyyətlərin də daşıyıcısı kimi çıxış edir. Avropa düşüncəsinə görə, nağıllar dini etiqadların kombinə edilmiş təzahürü və xalq mifologiyası əsasında formalaşan bir ümumi formadır [3, s.73-74.]. Nağıl dili əsasında müşahidə ediən nitq formulları nağılların özəyi funksiyasını oynayır. Bu formullar nağıl qəhərəmanlarını səciyyələndirir, onların statusu, olduğu məkan və zaman haqqında məlumat verir [4, s. 24].

Klassik nağıllarda xarici təhkiyə formullarına daxil olan dinləyicilərin diqqətinin yoxlanılması üçün olan epik formullar demək olar ki, işlədilmir. N.Roşiyanunun fikrincə, bu daha çox müasir dövrlərdə yaranan nağıllarda rast gəlinir. Əsasən hərbçilər və dənizçilər arasında tətbiq olunan bu tip formullar dinləyicilər yorulanda onlardan söyləyicinin nitqinə reaksiya istənilməsi zaman yaralanılır [9, s.94]. Azərbaycan folklorşünaslarının fikrincə, bu tip formullar daha çox sehrli nağıllarda rast gəlinir.

Nağıllarda müşahidə edilən ənənəvi formullar olduqca müxtəlif vərəngarəngdir. Bu formullar bir nağıldan digərinə keçərək gözəllik, zaman, təbiət hadisələri və s. haqqında müəyyən təsəvvür formalaşdırır, fərqli predmet və ya hadisələr haqqında məlumatı müəyyən təhkiyə formasında təqdim edir. Ənənəfi formul dedikdə nəyin nəzərdə tutulması ilə bağlı ortaya sual çıxdıqda bu zaman tipik olaraq bir-birinə oxşar olan formullar üzərində dayanmaq lazım gəlir. Bununla əlaqədar olaraq qeyd edilməlidir ki, tədqiqatçılar folklor nümunələri dilində müxətlif növ təkrarların (sadə bir leksik vahddən tutmuş, mürəkkəb sintaktik bütöv və mətn parşalarının təkrarı) oxşar hadisə və proseslər haqqında məlumat verilməsi zamanı istifadə edilməsini, daimi epitetlərə müracitə edilməsini və sintaktik parallellərin xüsusi əhəmiyyət kəsb etdiyini xüsusilə vurğulayırlar. Məsələn, O.A.Yeqorova formul haqqında qərbi Avropa folkloristikasında uzun illər klassik hesab edilən belə bir tərifini qeyd edir: "Formul verilən əhəmiyyətli bir fikrin ifadəsi zamanı daimi olaraq müəyyən qrup sözdən istifadə edilməsidir" [7, s. 29-30]. Digər alimlər fərdi sözləri canlı düstur kimi xarakterizə olunan formul kimi qəbul etməyi təklif etdilər: ayrı-ayrı sözlər, hətta fərdi ritmik-semantik birliklər, gündəlik danışıqdan fərqli olaraq poetik nitq vahidlərinin formulu ola bilər.

Beləliklə, ənənəvi formul konsepsiyası, seçim meyarlarına uyğun olaraq dilin bütün səviyyələrini əhatə edir: yəni formular bir sözdən ibarət ola bildiyi kimi, həm də cümlə və abzas şəklinə də mövcuddur.

Qeyd etdiyimiz kimi, Azərbaycan folklorunda epik formulları araşdıran Ş.Hüseynli hadisənin zamanını, təhkiyənin zamanını və qəhrəmanın hərəkət sürəti və zamanını qısaltmağa xidmət edən formulları "dinləyicinin yorulmaması üçün istifadə olunan formul" adı ilə dördüncü yarımqrup hesab edir və onu dinləyicinin diqqətini cəlb etmək üçün istifadə olunan formul tipindən ayırır. Onun sözlərinə görə, dinləyicinin diqqəti başqa səbəbdən də yayına bilər. Bu səbəbdən də nağılçı hərəkət sürətini nağılın zamanına uyğunlaşdırmaq üçün

qısa, yaxud mürəkkəb kombinasiyalı söz birləşməsi, ifadə və cümlələrdən medial formul yarana bilər. Bu mənada dinləyicinin diqqətini cəlb etmək üçün işlənən formullar arasında çox incə məzmun fərqləri vardır [1, s. 88]. Fikrimizcə, onları bir-birindən ayırmaq yanlış yanaşmadır. Çünki bu formullar istənilən halda eyni funksiyanı, daha dəqiq desək, dinləyicilərin diqqətini nağıla cəlb etmək, onlarda maraq oyatmaq məqsədini daşıyır. Belə ki, söyləyici sözügedən formullarda mifoloji nağıl zamanı ilə nağılın söyləndiyi zaman arasında eyniləşdirmə apararaq dinləyicinin diqqətini nağıla yönəltməyə cəhd edir. Bu zaman metaforik söz və ifadələr, məna yükü olmayan hərf və söz birləşmələrindən istifadə olunur. Eyni zamanda azərbaycan nağıllarında həmin qəliblərin əvvəlinə bəzən "bəli" modal sözü əlavə olunur. Məsələn, "Bəli, Hatəm çəkib çarığın dabanın, qırın yerin amanın, günə bir mənzil-teyyi mənazil, nağıllarda mənzil olmaz, az getdi, uz getdi, dərə-təpə düz getdi, bir neçə gündən sonra gəldi çıxdı həmin dərviş nişan yerə". Buraya yalnız azərbaycan nağılları üçün xarakterik olan bir çox magik formulları da aid etmək olar: "Bu almanı görəndə o saat başa düşdü ki, bu almada bir sirr var. Xudavəni-aləmin qüdrətindən deyir, yaxa qurtarsa, təbib qarşı gələr öz-özünə" ("Şah Abbasın arvadı").

İngilis "Nix Nought Nothing" (Niks heç də heç nə) nağıl mətnində işlədilən "Hidge, Hodge, on my back, what time of day do you make that?" (Hidge, Hodge, belimdəki, günün hansı vaxtı bunu edirsiniz?) ifadəsi də dinləyicilərin diqqətinin yoxlanılması üçün işlədilir. Bu zaman müxtəlif səslər, mimika və jestlər, emosional fasilələr də nağılçının köməyinə gəlir. İngilis "Jack and the beanstalk" ("Cek və lobya çubuğu") nağılında daha real nümunə göstərmək olar: "Ah what's this I smell? Fee-fi-fo-fum, I smell the blood of an Englishman, Be he alive, or be he dead I'll have his bones to grind my bread" (Ah, bu nə iydir? Fee-fi-fo-fum, Bir ingilisin qanını iyləyirəm, Ya sağ olsun, ya da ölü, Çörəklərimi üyütmək üçün sümüklərinə sahib olacam, dedi) (https://www.storiestogrowby.org).

Bu dialoq eyni adlı nağılın müxtəlif yerlərində tez-tez təkrarlanır. "The story of the three little pigs" (Üç kiçik donuz) nağılında "No, no, by the hair of my chiny chin chin" (Xeyr, yox, sısqa çənəmin çüyü çüyü ilə) və "Then I'll puff, and I'll huff, and I'll blow your house in" (Onda mən üfürüləcəm, şişəcəm və evinizi partladacam) təkrarları da heç bir semantik yükü olmasa da, qəlibləşərək medial formul finksiyasını daşıyır. Həmin nağılda başqa bir nümunəyə rast gəlirik: So he huffed, and he puffed, and he puffed, and he huffed, and at last he blew the house down, and he ate up the little pig (Beləliklə, o şişdi, şişdi və nəhayət evi partlatdı və balaca donuzu yedi) [2].

Müşahidə edilən və təhlilə cəlb edilən nağıl fraqmentlərində naqqalın dinləyicilərin diqqətini cəlb etmək cəhdi ilə işlətdiyi formullar heç də tez-tez rast gəlinmir. Bu formullar nağıllar zamanı üzdə olmayan, sezilməyən danışan və dinləyən arasındakı ünsiyyət formulu kimi də çıxış edir. Məhz bu formullar hesabına dinləyicidə düşüncə dinamikası müəyyən dərəcədə aktivləşir. Məsələn, ingilis nağıllarında başlanğıc formullarda daha çox hadisənin dəqiq baş verdiyi məkan haqqında məlumat verilir və dinləyiciyə bunun həqiqət olub-olmaması haqqında suallar ünvanlanır. Məsələn: Down in the West; On the slopes of Sharp Tor stands; High in a hollow in the Black Mountains of South Wales. "DUNNAMANY year ago, two chaps what had come from Lunnon — a pleace where all de men be as wise as owls...". Bu paraçada böyük hərflərlə verilmiş "dunnamany" leksik vahidi "I don't know how many" (Bilmirəm, nə qədər çox) anlamındadır, və bu ifadə ani olaraq oxucunu çox-çox uzaq keçmişdə baş verən hadisələrin ağuşuna atır. "Hadisələrin baş vermə zamanının yüz illər öncəyə aid olması haqqında məlumatın nağıllarda əks edilməsi, əslində, bu hadisələrin baş vermə zamanı haqqında qeyri-müəyyənlik yaradır" [8, s. 64]. Məsələn, "More than a hundred years since, there lived somewhere near Lizard Point a man".

Lakin nağıl süjetinin hər hansı bir real hadisələrin baş verməsi zamanına yaxınlığını qeyd edən markerlər nağıl dilində yalnız bir məqsədlə verilir: baş verənləri uzaq keçmiş dövrlərə aid etmək. Məsələn, Kral Arturun əfsanəvi xarakterini nəzərə alaraq, bu ad mövcud

olmayan bir keçmişin, yəni tamamilə qeyri-müəyyən bir zaman işarəsi sayıla bilər. Lakin bununla belə, nağıl süjetinin hər hansı bir tarixi hadisələrlə eyni zamanda baş verməsi bu hadisələrin indiki zamanla artıq hər hansı bir bağının olmadığına işarə edir, nağılda təsvir edilən hadisələri qeyri-konkretliyindən və şərtiliyindən xəbər verir.

Azərbaycan və ingilis dilli nağıllarda müşahidə edilən formulların tipoloji müqayisəsi nəzərdən hər iki xalqın etnokulturologiyası haqqında müəyyən məlumatın əldə edilməsinə səbəb olur. Məsələn, bu formulların nəzərdən keçirilməsi zamanı nitq etiketlərinin hər bir xalq üçün norma kimi qəbul edilən variantlarını aydın-aşkar sezmək mükündür.

Ümumiyyətlə, həm azərbaycan, həm də ingilis nağıl təhkiyəsini zənginləşdirən məhz təkrarlardır. Onaların sayı hər iki xalqın nağıllarında çoxdur, desək, yanılmarıq. Bununla yanaşı olaraq bir maraqlı məqama da toxunmaq lazım gəlir ki, Azərbaycan nağıllarından fərqli olaraq ingilis nağıllarında distant leksik təkrarlardan daha tez-tez istifadə edilir ki, bunların da böyük bir qismi semantik cəhətdən məhdudlaşdırılır. "Bu cür təkrarlar qismində daha çox hərəkət feilləri iştirak edir. Bu təkrarların əsas funksiyası hadisələrin ardıcıl gedişatının vurğulamaqdır. Bir qayda olaraq belə hadisələr müsbət sonluqla məticələnir" [6, s. 16].

Nağıl dilində dinləyicinin diqqətini cəlb etmək üçün ekspressivlik yaradan xüsusi növ leksik təkrarlardan istifadə edilir ki, bu kimi təkrarlar daha çox ingilis nağıllarında müşahidə edilir. Məsələn: a horrible, horrible form – çox qorxulu əcaib bir varlıq. İngilis nağıllarında bu kimi təkrarlar mənanın gücləndirən təkrarlar kimi çıxış edir. Məsələn: the blackest black — qapqara: He put on the blackest black... — O, ən qara (qapqara) rəngli matəm paltarına büründü və s. Azərbaycan nağıllarında isə sifətin bu cür təkrarlanmasına çox nadir hallarda rast gəlinir. Belə ki, Azərbaycan dilində belə hallarda sifətin çoxaltma dərəcində olan formasından istifadə edilməsinə daha çox üstünlük verilir.

Beləliklə, nəzərdən keçirilən dil materialları əsasında belə bir fikir yürütmək olar ki, dinləyicinin diqqətini cəlb etmək məqsədilə iştifadə edilən nağıl formulları fərqli sistemlərə məxsus olan dil nümunələrində bəzi hallarda üst-üstə düşdüyü kimi, bir çox hallarda fərqli şəkildə təzahür edir və bir-birindən bu və ya digər əlamətlərinə görə fərqlənir. Belə br fikri də vurğulamaq lazım gəlir ki, formullarda isitafə edilə qrammatik və leksik vahidlər kommunikativ situasiyadan birbaşa asılıdır.

Ədəbiyyat

1. Hüseynli, Ş.A. Azərbaycan folklorunda epik formullar/Ş.A.Hüseynli. Bakı, 2019, 184 s.
2. https://www.storiestogrowby.org (İstinad edilmə tarixi: 23.03.2021).
3. Акишина А.А. К кому и как обращаться // Русский язык и литература в средних учебных заведений УССР. Киев, 1991. № 10. с.73-74.
4.Балакай А.А. Этикетные обращения: функционально-семантический и лексикографи ческий аспект: /дис.канд.филол. наук./ Новосибирск, 2005, 241 с.
5. Белл Р.Т. Социолингвистика. Цели. Методы. Проблемы. / Р.Т.Белл. Москва: Международные отношения, 1980, 318 с.
6. Егорова О.А. Повторы как факты культуры, представляющие собой правило организации сказочного повествования // Актуальные проблемы гуманитарных и естественных наук. 2017, № 44, с. 14-17
7. Егорова О.А. Традиционные формулы, как явление народной культуры (на материале русской и английской фольклорной сказки): /дис.канд. культурологи./ – Москва, 2002. 259с.
8. Петрова Е.Е. Структурно-семантические и прагматические особенности формульных композиционных средств (на материале британских и русских народнвх сказок) // – Международный научно-исследовательский журнал. 2015.№ 13 (32), с. 63-64
9. Рошияну Н. Традиционные формы сказки / Н.Рошияну. Москва: Наука, 1974. 216 с.

СКАЗОЧНЫЕ ФОРМУЛЫ, ПРЕДНАЗНАЧЕННЫЕ ДЛЯ ПРОВЕРКИ ВНИМАНИЯ СЛУШАТЕЛЯ

Гасанова Айбаниз Азик кызы

Резюме

В исследовании, проведенном в рамках статьи, анализируются формулы, предназначенные для проверки внимания, а также для привлечения внимания слушателя.на языке сказок, Такие вопросы, как межъязыковое общение, культура речи, этнокультурные ценности и их отражение в языке, являются одними из самых актуальных вопросов в изучении сказочного языка, поскольку он является особым объектом изучения современной лингвистики. Основная цель этой статьи — определить функции, выполняемые этими формулами, и определить способы их использования. С этой целью в исследовании были задействованы азербайджанские и английские народные сказки, а также проанализированы отдельные фрагменты, взятые из этих сказок. В исследовании используются описательно-сравнительный и типолого-сравнительный методы лингвистики. Впервые в азербайджанской лингвистике на материале разносистемных языков обсуждаются и анализируются особые и экспрессивные виды формул сказки. В результате автор отмечает, что, несмотря на сходство формул, наблюдаемых в азербайджанских и английских сказках, каждая из них отличается своими особенностями и национальным колоритом.

FABULOUS FORMULAS DESIGNED TO TEST THE LISTENER'S ATTENTION

Hasanova Aybaniz Azik

Summary

The research conducted within the framework of the article analyzes formulas designed to test attention, as well as to attract the listener's attention. In the language of fairy tales, Issues such as interlingual communication, speech culture, ethnocultural values and their reflection in the language are among the most relevant questions in the study of the fairy language, since it is a special object of study of modern linguistics. The main purpose of this article is to define the functions performed by these formulas and determine how to use them. For this purpose, the study involved Azerbaijani and English folk tales, and also analyzed individual fragments taken from these tales. The research uses descriptive-comparative and typological-comparative methods of linguistics. For the first time in Azerbaijani linguistics, special and expressive types of fairy tale formulas are discussed and analyzed on the basis of multi-system languages. As a result, the author notes that, despite the similarity of the formulas observed in Azerbaijani and English fairy tales, each of them has its own characteristics and national flavor.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent R.A.Heydərov
21 aprel 2021-ci il tarixli iclasın 04 saylı protokolu
Daxil olduğu tarix 23 aprel 2021-ci il

UOT:81

DİLİN LEKSİK-SEMANTİK SİSTEMİ ANLAYIŞI

Hümbətova Vüsalə Rafik qızı
Gəncə Dövlət Universitetinin doktorantı
vusalagumbatova1981@gmail.com

Xülasə: *Məqalədə Azərbaycan və ingilis dillərinin leksikasına məxsusi olan leksik-semantik sistem anlayışı və onun sintaqmatik və paradiqmatik münasibətləri məsələləri*